Həqiqətən izzət və cəlal sahibi olan Allah sizi atalarınızın adına and içməyi qadağan edir

Ömər bin Əl-Xəttabdan (Allah ondan razı olsun) Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Həqiqətən izzət və cəlal sahibi olan Allah sizi atalarınızın adına and içməyi qadağan edir", Ömər dedi: Vallahi, Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) bu qadağanı eşitdikdən bəri nə öz sözüm olaraq, nə də nəql olaraq bu cür and içmədim.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə xəbər vermişdir ki, uca Allah ataların adına and içməyi qadağan edir, ona görə də kim and içmək istəyirsə, ancaq Allaha and içsin, Ondan qeyrisinə and içməsin. Sonra Ömər bin Əl-Xəttab (Allah ondan razı olsun) Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) bu qadağanı eşitdiyi andan nə qəsdən, nə də başqasından nəql olaraq Allahdan qeyrisinə and içmədiyini söyləmişdir.

http://www.sunnah.global/hadeeth/az/show/2945